# HİKMƏTLƏR VƏ NƏSİHƏTLƏR

************************************************************

Mirzə Şəfi Vazeh



************************************************************


http://www.kitablar.com

http://www.kitablar.org/

hikmətin başı allahdan qorxmaqdır.

Anlamaz özünə düşməndir, özgəyə necə dost olur?

Kim səni öyür, pislər dəxi.

Nəfs irzini tərk eyləməz ölənədək.

Hər kəsin təcrübələri çoxdur, əqli dəxi çoxdur.

Tənbəllik və çox yatmaq insanı allahdan uzaq eylər və fəqirliyi artırar.

Evdən irəli qonşunu axtar və yoldan irəli yoldaş.

Pislə özünü, necə ki özgəni pislərsən

Acığın əvvəli dəlilikdir, axırı peşmanlıq.

Hər kəsin həvası əqlinə qalibdir, həlak olur.

Əqilli düşmən nadan dostdan yaxşıdır.

İbadət şəhvəti öldürür.

Fəqirlik yaxşıdır haram dövlətlilikdən və kasıblıq xoşdur zülmdən.

Lal dil yaxşıdır, yalançı dildən.

Xalqın pisi o alimdir ki, elminə əməl eyləməyə.

Eşit ta anlayasan və danışma ta səlamət olasan.

Üç zat məlum olmaz məgər üç yerdə:
igidlik tanılmaz məgər cəng vaxtı və həlimlik bilinməz məgər acıq vaxtı və dost məlum olmaz məgər hacət vaxtı.

Ədəbsiz kişi cansız cəsəd kimidir.

Kim çox danışır, çox sürüşür.

İki kimsə doymazlar: elmi tələb eylayən və malı tələb eyləyən.

Özünu xalqdan sayma nə qədər ki, acığın özünə qalibdir.

İki halətlər insanı həlak eylərlər: malın çoxluğu və kəlamın çoxluğu.

Tövbəsiz cavan ustasız ev kimidir.

Alimin bir günu yaxşıdır cahilin hamı ömründən

Yatanın oyaqdan xəbəri olmaz.

İlan vurmuş ipdən qorxar.

Atın elməyi itlərin bayramıdır.

İki qılınc bir qına sığışmaz.

Dəmir kəsilməz məgər dəmir ilə.

Nemət şükür ilə bərqərar olur.

Qələm bir ağacdır ki, yemişi nəfdir və fikir bir dəryadır ki, mirvarisi hikmətdir.

Fəqirlik bəxşişi bəxşişlərin yaxşısıdır.

Xəlq ölüdür və elm əhli diri.

Dirilik od kimidir, əvvəli tüstü, axırı kül.

İnsana çətinraqdır öz nəfsini tanımaq.

Xalqın elmləri ikidir: həqiqətdir ki, onu təhsil eyləməkdə aciz olur və batildir ki, onun təhsili faidə verməz.

Səbirsiz fəqir yağsız çıraq kimidir.

Dünyanın və malın dostluğu hamı xətaların başıdır.

Tələsməkdə peşmanlıq var, səbrdə salamat.

Diri it ölü aslandan yaxşıdır.

Qardaşların yaxşısı o kəsdir ki, xəbərləndirə qardaşını şərdən, qoruya və xeyrin tərəfinə yol göstərə.

Ölüm yavuqdur bizlərə, necə ki, kirpik gözə yavuqdur.

O kəs ki, özkənin sirrini sənə deyir, sənin sirrini dəxi özgəyə deyər.

Alim cahili tanır, ondan ötrü ki, o cahil var idi və cahil alimi tanımaz o səbəbdən ki, o alim olmayıbdır.

Heç zad sənə fayda verməz, məgər o ki, səninlədir.

Xoş o kəsə ki, özgənin eybindən öz eybinə məşğul olur.

Kim ki, tikan əkər, ondan üzüm dərməz.

Qənaət eylə ona ki, allah qismət eləyibdir ki, qane olursan.

Qorxma ondan ki, həzər eylərsən, amma həzər eylə ondan ki, arxayınsan.

Deyənə baxma, dediyinə bax.

Hər kəs hər zadı dost tutar, onu çox zikr eylər.

Kim ki, eybsiz dost axtarsa, dostsuz qalar.

Zalım ölüdür, əgərçi diridir.

Yaxşılıq eyləyən kişi diridir, hərçənd elmüş ola.

Faydası yoxdur o xəzinənin ki, ondan nəfəqə verilməyə.

Şəhərlərin pisi o yerdir ki, onda doğru kişi yoxdur.

Bu günki işini sabaha qoyma.

İki şeylərin fəziləti tapılmaz, ta əldən getməyə: cavanlıqdır və afiyət.

Xalqın zəifatı o kəsdir ki, xalqın sirrini saxlamaya və qüvvətli o kişidir ki, öz acığına qalibdir.

O kişi səbrlidir ki, fəqirliyini gizlədə və o kəs qənidir ki, ona yetişəni qənaət eyləyə.

Hər kəs ki, xeyri öyrədər özgəyə, özü əməl eyləməz, o kor kimidir ki, əlində çıraq ola, özgələr onun çırağı ilə yol tapalar, amma özünə bir faydası olmaya.

Bir işə iqdam eyləmə ki, onu bacarmazsan.

Eyləmə o işi ki, sənə faydası yoxdur.

Ümid bağlama malə, hərçənd çox olə.

Layiq deyil o əqilliyə ki, sakin ola bir şəhərdə ki, onda beş şeylər olmayalar: adil padşah və doğru qazi və haziq təbib və axar su və möhkəm bazar.

Dünya şirindir çahilə və acıdır aqilə.